# Məktəbəqədər yaşlı uşaqlarda sosial inkişafın səciyyəvi cəhətləri

**Səadət Mübariz qızı Aslanova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** aslanzadeh225@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.f.d. L.A. Məmmədli

**Açar sözlər:** inkişaf, sosiallaşma, ünsiyyət, məktəbəqədər yaşlı uşaqlar
**Ключевые слова:** разработка, социализация, общаться, дети дошкольного возраста
**Key words:** development, socialization, communication, preschool children

Məktəbəqədər yaşlı uşaqların sosiallaşmasının əsas məzmun xəttini uşaqların sosial aləminin formalaşması texnologiyası təşkil edir. Sosiallaşma elə bir prosesdir ki, burada hər bir dövr öz xarakterinə və tələblərinə uyğun sosiallaşmış şəxsiyyət yetişdirir. Buna görə də uşaqların cəmiyyətdən kənarda sosiallaşması mümkün deyil. Sosiallaşma çoxaspektli proses olub, müəyyən məzmuna və prinsiplərə əsaslanır. Bu dövrdə şəxsiyyətin formalaşmasının, fərdiləşmənin əsası qoyulur.

Məktəbəqədər yaş dövrü uşağın sosial inkişafında vacib bir dövrdür, çünki bu yaş dövrü sosial dəyərlərin, davranışların mənimsənilməsində özünəməxsus yer tutur. Burada uşaqların sosiallaşmasının əsas məsuliyyəti məktəbəqədər təhsil sisteminin üzərinə düşür. Bu təhsil dövründə uşaqların sosial və mənəvi inkişafının düşünülmüş şəkildə təşkili onun bütün gələcək taleyinə öz təsirini göstərir. Belə ki, məktəbəqədər təhsil yalnız təhsilin növbəti mərhələsində uşağın nailiyyət göstəricilərinin yüksəldilməsi baxımından əhəmiyyətli olmayıb, həm də öz sosial ehtiyaclarını təmin edən vətəndaşın formalaşdırılmasında böyük rol oynayır.

Sosiallaşma uşaqların gələcək inkişafında daha geniş və fəal iştirak edir. Burada uşaqlar artıq sosial münasibətlərin subyekti, iştirakçısı kimi çıxış edir. İ.S. Vıqotskinin sözləriylə desək, "məktəbəqədər yaş dövrünü uşaqların "bəşər mədəniyyətinə qovuşan dövrü" kimi qiymətləndirmək olar".

Uşağın sosial inkişafının əsasını sosial tərbiyə təşkil edir. Sosiallaşma erkən uşaqlıqdan başlanır və bütün həyat boyu davam edir. O uşaqların başqa insanlarla qarşılıqlı təsiri, onun cəmiyyətin dəyər və birgə fəaliyyət növlərini mənimsəməsini əhatə edir. Nəticədə onlar tədricən bioloji varlıqdan sosial varlığa çevrilir.

Məlum olduğu kimi məktəbəqədər yaşlı uşaqların sosial inkişafında aşağıdakı mühitlər təsir edir: ailə, uşaq bağçası, uşağın mühiti, uşaq müəssisələri (inkişaf mərkəzi, dərnəklər və s.), uşaq fəaliyyəti, televiziya, uşaq mətbuatı.

Uşaqların sosial inkişafında uşaq bağçaları mühüm yer tutur. Uşaq bağçası öz növbəsində, uşağın ətraf aləmlə qarşılıqlı harmoniyasını təmin etməyə, xeyirxah hisslər oyatmağa, əməkdaşlığa və müsbət özünütəsdiqə nail olmağa qadirdir. Uşağın sosial fəallığı cəmiyyət tərəfindən qəbul edilmiş mədəni ənənələrə uyğun olaraq ətraf aləmə münasibətini ifadə etməyə can atmasında yaranır. Onlar üçün həmyaşıdları ilə ünsiyyət bir çox müsbət emosiyaların mənbəyidir. Burada onlar norma və dəyərlər, cəmiyyətdə davranış və s. kimi bilikləri öyrənirlər. Ünsiyyət zamanı onlar etik normaları öyrənir, yaşıdları ilə kollektiv şəklində hərəkət edirlər, bu kollektivin maraqlarını nəzərə alırlar.

Düzgün ünsiyyətin qurulması uşaqların sosial keyfiyyətlərinin formalaşması üçün başlıca rol oynayır. Uşağın ana-atası və ətrafında olan insanlarla yaşaması onun sosial həyatının başlanğıcıdır. Ünsiyyət prosesində maddi və mənəvi dünyanın, təbiət, əşya və sosial aləmin dərk olunması, şəxsiyyətlərarası münasibətlərin inkişafı, emosional və iradi mədəniyyətin təşəkkül tapması baş verir. Ünsiyyət yeni sosial mühitə uyğunlaşmaya, komfortu hiss etməyə imkan yaradır. Bunun üçün müvafiq bacarıqların mənimsənilməsi zəruri hesab edilir.

Kommunikativ bacarıqlara nail olmaq uşağın sosial vəziyyətini yaxşılaşdırır: digərini başa düşüb qəbul etməyə, məlumat verməyə, hisslərini ifadə etməyə, bütövlükdə nitq inkişafına imkan yaradır. Məktəbəqədər yaşlı uşaqların həmyaşıdları ilə ünsiyyətə tələbatı onun şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır və ünsiyyət tələbatı başqa adama simpatiya-münasibətə gətirib çıxarır. Uşaqlar müəyyən cəhətdən inkişaf etdikcə çevrəsi də genişlənir. Beləliklə, ailə içində başlayan sosial münasibətlər dostluq münasibətləri və məktəb həyatı ilə davam edir. Məktəbəqədər yaşlı uşaqların sərbəst və ya böyüklərin təsiri ilə ünsiyyət qurmağı bacarması onların cəmiyyətdə qarşılıqlı təsir nəticəsində inkişaf edən sosial varlığa çevrilməsində, ümumilikdə gələcək həyatlarının düzgün inkişafında mühüm rol oynayır. Uşaqların əhatə olunduğu mühit, kollektiv onların düzgün sosiallaşmasını təşkil edir.

Rus pedaqoq A.V. Mudrik sosiallaşma amillərini 3 növə bölmüşdür:

1. Makro amillər - sosial-siyasi və ideoloji çərçivə nəzərdə tutulur;
2. Mezoamillər - bunlara uşağın böyüdüyü şərait, media, regional şərtlər və digərləri daxildir.
3. Subyektiv amillər - bunlara uşağın fərdi xüsusiyyətləri daxildir. Bütün bu amillərin əməkdaşlığı uşaqların sosial inkişafının xüsusiyyətlərini təşkil edir.

Məktəbəqədər yaşlı uşaqların sosial inkişafı onların yaş xüsusiyyətlərindən asılıdır. 3 yaşdan etibarən uşaqlarda tam şəxsiyyətlərarası ünsiyyət imkanlarının yaranması üçün şərait yaratmaq vacibdir. Bu dövrdə uşaqlar öz növbələri ilə ünsiyyət qurur, bir-birinə cəmiyyətdə bir yerdə yaşamaq üçün sadə normalar öyrədirlər. Onların mənəvi davranış təcrübəsi böyüklər ilə ünsiyyət prosesində inkişaf edir və müxtəlif birgə fəaliyyət və münasibətlərdə həmyaşıdları ilə davam etdirilir.

Uşaqların sosial inkişafının ən əlverişli və effektiv yolu oyundur. Bu dövrdə oyun hər bir uşağın əsas fəaliyyətidir və rabitə oyunun ayrılmaz bir hissəsidir. Oyun müddətində uşaq həm sosial, həm də emosional inkişaf edir. Çalışırlar ki, böyüklərin davranışını öyrənsin. Oyunda, uşaqlar münaqişələri həll etmək üçün müxtəlif yolları təhlil edir, xarici dünya ilə qarşılıqlı əlaqə qurmağı öyrənirlər. Bundan başqa oyundan fərqli olaraq məktəbəqədər uşaqlar üçün söhbətlər, oxu, araşdırma, müşahidə və müzakirələr də vacibdir. Bütün bunlar uşaqlara sosial inkişafa kömək edir.

Sosial keyfiyyətlərin mahiyyətinin mənimsənilməsi üçün uşaqlar müəyyən olunmuş normaları şüurlu olaraq dərk etməlidirlər. Belə ki, şəxsiyyətin sosiallaşması uşağın dünyagörüşündən, cəmiyyətə uyğunlaşma dərəcəsindən, mədəni dəyərləri mənimsəmə səviyyəsindən asılıdır. Dəyərlər şəxsiyyətin sosiallaşmasının güclü amili kimi çıxış edir.

Məktəbəqədər yaşlı uşaqlar sosial keyfiyyətlərə nə qədər dərin və hərtərəfli yiyələnərsə, onlar özünəməxsus keyfiyyətlərini inkişaf etdirmək üçün daha çox imkanlar əldə etmiş olar. Başqa sözlə, ayrılıqda götürülən hər bir şəxs və ya fərd sosial münasibətlərin məcmusunu nə dərəcədə mənimsəyirsə, bir o dərəcədə də onların daşıyıcısı kimi çıxış edir.

Bu tədqiqatdan belə bir nəticə hasil olur ki, məktəbəqədəryaşlı uşaqların sosial inkişafı onların mədəni dəyərləri mənimsəmə səviyyəsindən, fəallıq dərəcəsindən, yaradıcı düşüncə tərzindən asılıdır. Sosiallaşma prosesi bütün həyat boyu davam edir, məktəbəqədər yaşlı uşaqlar-

da sosiallaşma əsasən, davranış motivasiyası ilə bağlıdır. Məktəbəqədər yaşlı uşaqlarda sosial inkişaf sferalarını ailə, tərbiyə və tədris müəssisələri, əmək kollektivləri, dostların, tanışların, qohumların əhatəsi, kütləvi informasiya vasitələri və s. təşkil edir. Həmçinin sosial inkişaf özünü intellektual, mənəvi və psixoloji inkişafında göstərir. Sosial inkişafın gedişində sosial keyfiyyətlərin, xüsusiyyətlərin, əməllərin və bacarıqların, ünsiyyətin formalaşması baş verir, bunların sayəsində onlar sosial qarşılıqlı təsirin səlahiyyətli iştirakçısı olur. Bu yaş dövründə uşaqlar sosial təcrübəni mənimsədikcə sosial qrupun nümayəndəsi kimi, əhəmiyyətli keyfiyyətlərə yiyələnmiş şəxsiyyət kimi formalaşır.

**Məqalənin aktuallığı.** Məktəbəqədər yaşlı uşaqlarda sosial inkişafın səciyyəvi cəhətlərinin müəyyənləşdirilməsi özünün aktuallığı ilə seçilir.

**Məqalənin elmi yeniliyi.** Məktəbəqədər yaşlı uşaqlarda sosial inkişafın səciyyəvi cəhətlərinin müəyyənləşdirilməsi diqqət mərkəzinə gətirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə magistrant və dissertantlarda, ümumiyyətlə, gənc tədqiqatçılarda maraq doğuracaqdır.

## Ədəbiyyat

1. "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartları". Bakı, 2019, № 351

2. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.

3. Əliyeva Ş. Məktəbəqədər pedaqogika: Dərs vəsaiti. Bakı, 2015.

4. Həsənova P. Məktəbəqədəryaşlı uşaqların sosial-mənəvi inkişafı: Dərs vəsaiti. Bakı, 2017.

5. Psixologiya: Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik. Bakı, 2007, 650 s.

**С.М. Асланова**

## Характеристика социального развития дошкольников аспекты

## Резюме

В статье рассматривается социальное развитие дошкольников и его особенности. Показано, что в результате социального развития ребенок усваивает нормы поведения в социальной группе, к которой он принадлежит. Правильные личные нормы и различные виды деятельности играют важную роль в социализации детей. В процесс социализации вовлечены семья, школа, СМИ, трудовые коллективы и т.д. Также показано, что общение имеет особое значение для социального развития ребенка, поскольку общение играет ключевую роль в формировании социальных качеств у ребенка. Приобретение социальных качеств у дошкольников позволяет им правильно развиваться.

**S.M. Aslanova**

## Characteristic of social development in preschool children aspects


### Summary

The article examines the social development of preschoolers and its features. It is shown that as a result of social development, the child learns the norms of behavior in the social group to which he belongs. Correct personal norms and different activities play an important role in the socialization of children. Family, school, media, labor collectives, etc. are involved in the process of socialization. It is also shown that communication is of particular importance for the social development of a child, since communication plays a key role in the formation of social qualities in a child. The acquisition of social qualities in preschoolers allows them to develop correctly.


**Redaksiyaya daxil olub:** 30.09.2021